

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 189 (21.090)

3 oktyabr 2014-cü il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Oktyabrın 2-də Heydər Əliyev Mərkəzində IV Bakı Beynəlxalq Humanitar Forumu işə başlayıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva forumun rəsmi açılış mərasimində iştirak ediblər.

Dövlətimizin başçısı forumun açılışında nitq söylədi.

* * *

Oktyabrın 2-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından IV Bakı Beynəlxalq Humanitar Forumunun iştirakçılarının şərəfinə nahar verilib.

* * *

Oktyabrın 2-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyası Federal Məclisinin Federasiya Şurasının sədri Valentina Matviyenkonu qəbul edib.

* * *

Oktyabrın 2-də Azərbaycan Prezidenti İlham Əliyev Türkmənistanın Baş nazirinin müavini Sapardurdu Toyliyevi qəbul edib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 2-də Latviya Respublikasının sabiq Prezidenti Valdis Zatlersi qəbul edib.




## K.C.Cəfərovun Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin sədri təyin edilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Kamal Camal oğlu Cəfərov Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin sədri təyin edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 2 oktyabr 2014-cü il*

## Qaraçuq kəndi müasir yaşayış məntəqəsinə çevrilir

***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 31 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "2014-2015-ci illərdə Naxçıvan şəhərinin sosial-iqtisadi inkişafı üzrə Proqram"a əsasən, cari ilin ötən dövründə Naxçıvan şəhərinin Əliabad qəsəbəsində, Xətai məhəlləsində, kənd yaşayış məntəqələrində böyük həcmdə quruculuq tədbirlərinə start verilib. Şəhərin Qaraçuq kəndində də Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Naxçıvan Şəhər İdarəsinin inşaatçıları tərəfindən bir neçə obyektin tikintisi aparılır.***



Kənddəki mövcud məktəb binasının müasir tələblərə cavab verməməsi nəzərə alınaraq müasirtipli layihə əsasında yeni məktəb binası inşa olunur. İdarənin iş icraçısı Qadir Babayevdən aldığımız məlumata görə, məktəbin yeni binasının layihəsində yaşayış məntəqəsinin gələcək perspektivi nəzərə alınıb. Yeni bina 630 şagird yerlikdir. Müəllim və şagirdlərin ixtiyarına 38 sinif otağı, 4 elektron lövhəli sinif və 4 kompüter sinfi, hərbi kabinə, kitabxana, fizika, kimya, biologiya laboratoriyaları, idman zalı veriləcək. Tikintiyə kifayət qədər texnika və işçi qüvvəsi cəlb edilib. Bu isə inşaat işlərinin sürətlə və keyfiyyətlə aparılmasına imkan verib. Artıq obyektdə tikinti işlərinin böyük bir qismi başa çatdırılıb, dam örtüyü vurulub, elektrik, rabitə, su, istilik xətləri çəkilib, suvaq işləri aparılır, mərtəbələrarası pilləkənlərə və dəhlizlərə üzlük döşənir. Fasad hissəyə milli naxışlarla bəzədilmiş və cilalanmış travertin üzlüklər vurulacaq. Həyətdə abadlıq işləri görüləcək.

Orta məktəb binası ilə yanaşı, inşa edilən digər obyekt musiqi məktəbi üçün nəzərdə tutulub. Bu təhsil ocağında 18 sinif otağı, iclas zalı, solfecio sinfi, musiqi ədəbiyyatı otağı, kitabxana və digər yardımçı otaqlar olacaq. Hər iki məktəbin binası fərdi qazanxana ilə qızdırılacaq.

Digər bir obyekt kənddə fəaliyyət göstərən qurumların birgə işini təşkil etmək üçün inşa olunan kənd mərkəzidir. İnşaatçılar qısa müddət ərzində 2 mərtəbədən ibarət olan, müasirtipli layihə əsasında inşa edilən binada bir çox işləri başa çatdırıblar. Mərkəzdə inzibati ərazi dairəsi üzrə nümayəndəlik, bələdiyyə, Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatı, klub, kitabxana, polis sahə və baytarlıq məntəqələri fəaliyyət göstərəcək. Həmçinin kənddə rabitə evi və poçt bölməsi də yaradılacaqdır.

Qaraçuq kəndində daha bir quruculuq tədbiri iki mərtəbədən ibarət həkim ambulatoriyasının inşa edilməsidir. Ambulatoriyada baş həkim, stomatoloq, ginekoloq, terapevt üçün kabinələr, palata, doğuş, peyvənd, müayinə və manipulyasiya, tibb bacısı otaqları, aptek yerləşəcək. Bu səhiyyə müəssisəsində dünyanın aparıcı ölkələrinin istehsalı olan müasir tibbi avadanlıqların quraşdırılması nəzərdə tutulub.

Kənd sakinləri kənddə inşa olunan xidmət mərkəzini onlara göstərilən növbəti dövlət qayğısı kimi dəyərləndirirlər. Hazırda obyektdə son tamamlama işləri aparılır. İnşaatçılar yaradılan şəraitdən səmərəli istifadə edirlər.

Mərkəzdə bərbərxana, qadın gözəllik salonu, ət satışı yeri, ərzaq, geyim və təsərrüfat malları olmaqla, 3 mağaza fəaliyyət göstərəcək.

✍ **Muxtar MƏMMƏDOV**

## Tanınmış dövlət xadimi Sadıq Rəhimovun 100 illik yubileyinə həsr olunmuş tədbir keçirilmişdir

***Oktyabrın 2-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin və Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) Naxçıvan Bölməsinin birgə təşkilatçılığı ilə Azərbaycanın tanınmış dövlət xadimi Sadıq Rəhimovun 100 illik yubileyinə həsr olunmuş tədbir keçirilmişdir.***



Tədbiri giriş sözü ilə açan AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev bildirmişdir ki, uzun illər dövlət idarəçiliyi sahəsində müxtəlif məsul vəzifələrdə çalışmış, Azərbaycan hökumətinə rəhbərlik etdiyi dövr ərzində respublikanın ictimai-siyasi həyatına, sosial-iqtisadi inkişafına mühüm töhfələr vermiş Sadıq Rəhimovun anadan olmasının 100 illiyi Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2014-cü il avqustun 8-də imzaladığı Sərəncama əsasən qeyd olunur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Rəhman Məmmədov Sadıq Rəhimovun həyat və fəaliyyəti barədə danışaraq qeyd etmişdir ki, tanınmış dövlət xadimi cəmiyyətimizə, xalqımıza yalnız şərəf gətirən mənalı bir ömür yaşamışdır. 1914-cü ildə Bakının Balaxanı kəndində neftçi-fəhlə ailəsində anadan olan Sadıq Rəhimov 1929-1931-ci illərdə Bakı Neft Texnikumunda təhsil almışdır. 1939-cu ildə Moskvaya Ali Partiya Məktəbində oxumağa göndərilən Sadıq Rəhimov təhsilini yarımçıq qoyaraq 1941-ci ildə cəbhəyə yollanmış və ağır yaralanması ilə əlaqədar hərbi qulluqdan tərxis edilərək Bakıya qayıtmışdır. Bundan sonra ona Azərbaycanın toxuculuq sənayesi nazirinin müavini vəzifəsi tapşırılır. Toxuculuq Sənayesi Nazirliyi ilə Yüngül Sənaye Nazirliyi birləşdirildikdən sonra nazir vəzifəsinə təyin edilir. Bir müddət sonra isə Sadıq Rəhimov Azərbaycan SSR kommunal təsərrüfatı və mülki tikinti naziri, daha sonra sənaye malları naziri olur.

Bildirilmişdir ki, Sadıq Rəhimovun dərin biliyi, böyük səriştəsi, zəngin təcrübəsi və ən əsası işgüzarlığı bu çətin və məsul vəzifələri layiqincə yerinə yetirməsinə imkan vermişdir. Çünki o, yeniyetmə yaşlarından zavod-fabrikdə istehsalatı öyrənmiş, idarəetmə təcrübəsi toplamışdır. Görünür, onun tez-tez bir vəzifədən digərinə keçirilməsi də təsadüfi deyildi. Çünki Sadıq Rəhimov hər yeni sahəni qaydaya salıb işi qurmağı gözəl bacarırdı.

Bütün bunlar nəzərə alınaraq o, 1954-cü ildə daha yüksək vəzifəyə irəli çəkilir, Azərbaycan SSR Nazirlər Sovetinin sədri seçilir. 1958-ci ilə qədər respublika hökumətinə rəhbərlik edir. Bu illərdə Sadıq Rəhimov respublika iqtisadiyyatının tək bir sahəsinin rəhbəri deyildi, artıq Azərbaycanı idarə edənlərdən biri idi. Həmin dövrdə respublikanın sənayesində, kənd təsərrüfatında, mədəni həyatında baş verən bütün hadisələr, yeniliklər birbaşa olaraq Nazirlər Soveti sədrinin adı, iş fəaliyyəti ilə bağlı idi. Tutduğu vəzifələrlə əlaqədar Sadıq Rəhimov tez-tez Moskvaya gedir, işlə bağlı SSRİ Nazirlər Sovetində, Dövlət Plan Komitəsində, ayrı-ayrı nazirlik və idarələrdə olurdu. Moskvadakı yüksək vəzifəli şəxslər onu hörmətlə qarşılayar, diqqətlə dinləyər, fikirləri ilə hesablaşar və qaldırdığı məsələləri həll etməyə çalışardılar.

Rəhman Məmmədov qeyd etmişdir ki, ötən əsrin 70-ci illərində xalqımızın ümummilli lideri Heydər Əliyev Mərkəzi Komitənin plenumlarından birində paytaxtda mənzil tikintisinin vəziyyətini təhlil edərkən vaxtilə Bakının Baş Tikinti İdarəsinin rəisi işləyən Sadıq Rəhimovun işgüzarlığını, təşkilatçılıq bacarığını və prinsipiallığını yüksək qiymətləndirmiş, mənzil tikintisinin sürətləndirilməsində onun əməyini xüsusi olaraq qeyd etmişdi. Bu da təsadüfi deyildi, çünki Sadıq Rəhimov həm Vətənini, millətini sevən fədakar insan, həm də işgüzarlığı ilə seçilən milli kadr idi. Məhz bacarıqlı milli kadrlara xüsusi diqqət yetirən ulu öndərimiz onu yüngül sənaye naziri təyin edir və beləliklə, Sadıq Rəhimov ömrünün son 10 ildən çoxunu həmin vəzifədə çalışır.

"Onu yaxından tanıyanlar, müasirləri xatırlayırlar ki, Sadıq Rəhimov nüfuzlu bir şəxsiyyət idi. Xarakterindəki qürur, ciddilik, dönməzlik, qətiyyət və digər bu kimi keyfiyyətlər onun hər zaman nəzərəçarpan xarici görkəmini tamamlayırdı", – deyən Rəhman Məmmədov əlavə etmişdir ki, vətənpərvər insan, Azərbaycanın sosial-iqtisadi inkişafında xidmətləri olmuş Sadıq Rəhimovun səmərəli fəaliyyəti, sənayenin inkişafındakı xidmətləri bu gün də ehtiramla xatırlanır. Təsadüfi deyildir ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Sadıq Rəhimovun uzun illər müxtəlif vəzifələrdə səmərəli xidmətlərini nəzərə alaraq onun 100 illik yubileyinin keçirilməsi haqqında Sərəncam imzalamışdır. Bu, dövlət xadiminin xatirəsinə göstərilən ehtiram, onun əməyinə verilən yüksək qiymətdir.

AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Fəxrəddin Səfərli Sadıq Rəhimovun dövlət idarəçiliyi sahəsindəki səmərəli xidmətlərindən ətraflı söhbət açmışdır. Bildirmişdir ki, hər zaman işinə məsuliyyətlə yanaşan Sadıq Rəhimovun işgüzarlığı və təşəbbüskarlığı onu tutduğu vəzifələrdə pillə-pillə yüksəltmişdir.

Daha sonra çıxış edən AMEA-nın Bioresurslar İnstitutunun direktoru, akademik Tariyel Talıbov, AMEA-nın müxbir üzvləri Vəli Baxşəliyev, Əbülfəz Quliyev, Qadir Qədirzadə Sadıq Rəhimovun Vətəninə, xalqına sədaqətlə xidmət etməsindən, Azərbaycan xalqına, onun dilinə, mədəniyyətinə verdiyi böyük dəyərdən, insani keyfiyyətlərindən söz açmışlar.

Tədbirə AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev yekun vurmuşdur.

✍ **Rauf ƏLİYEV**

**Ulu öndər Heydər ƏLİYEV:** *Bu gün mənim üçün tarixi, əlamətdar bir gündür. Mənə göstərilən bu böyük etimada görə Azərbaycan vətəndaşlarına, Azərbaycan xalqına hörmətimi, məhəbbətimi bildirir və əmin etmək istəyirəm ki, həyatımın sonuna qədər xalqıma sədaqətlə xidmət edəcək və bütün fəaliyyətimi Azərbaycan Respublikasının gələcək inkişafına sərf edəcəyəm.*



*1993-cü il oktyabrın 3-də qədirbilən Azərbaycan xalqı Naxçıvanda formalaşdırılan müstəqil dövlətçilik ənənələrinin banisi ümummilli lider Heydər Əliyevin Azərbaycan Prezidenti seçilməsinə səs vermişdir.*

# Azərbaycan xalqının müdrik seçimi

Bu gün hər birimiz ulu öndəri bir daha yada salır, onun dövlətçiliyimizin möhkəmləndirilməsi, inkişafı üçün gördüyü misilsiz xidmətləri xatırlayır, ruhu qarşısında baş əyirik. Xalqımızın böyük oğlu həyatının bütün mərhələlərində canı qədər sevdiyi Azərbaycana xidmət etmiş, ***“Mən həmişə xalqla bir olmuşam, xalqın taleyini öz taleyim bilmişəm. Həyatımı xalqın xoşbəxtliyinə həsr etmişəm və son nəfəsimədək bu yolda mübarizə aparacağam”*** vədinə sadiq qalaraq Azərbaycan Respublikası kimi qüdrətli və sürətlə inkişaf edən bir dövlət qurmuşdur.

Ulu öndərin memarı, müəllifi və qurucusu olduğu müstəqil Azərbaycan Respublikası bu gün yaşayır, onun quruculuq yolu yeni meyarlarla zənginləşdirilərək davam etdirilir, ölkəmizdə qlobal əhəmiyyətə malik layihələr həyata keçirilir. Azərbaycan bu gün zirvələr fəth edir, regional təhlükəsizliyə öz töhfəsini verir. Paytaxtımız Bakı şəhəri, qədim Naxçıvan beynəlxalq əhəmiyyətli tədbirlərin keçirildiyi məkan kimi şan-şöhrət qazanır. Təbii ki, bütün bu möhtəşəm uğurların təməli 1993-cü ildən başlanan Heydər Əliyev siyasi xətti ilə qoyulmuşdur.

Tarix boyu öz xalqı, dövləti və dövlətçiliyi uğrunda mübarizə aparan liderlər çox olmuşdur. Ancaq öz sağlığında ümummilli lider adını qazanmaq böyük öndərimizdən başqa heç kimə nəsib olmamışdır. Ulu öndər hələ Sovetlər Birliyi dövründə dövlət idarəçiliyində azərbaycanlı kadrları yerləşdirərkən, milli hərbçi kadrları hazırlayarkən də ancaq öz xalqının gələcəyini düşünmüş, onun yolunda hər cür çətinliklərə dözmüşdür. Dahi Heydər Əliyev Mixail Qorbaçovun Bakıda törətdiyi 20 Yanvar qırğınına etiraz edərək Moskvada bəyanat verəndə də, həm Ayaz Mütəllibovun, həm də AXC-Müsavat iqtidarının çoxsaylı hədə-qorxularına məhəl qoymayaraq xalqı ilə bir olmaq üçün Moskvadan Bakıya gələndə də, yalın əllə başdan-ayağa silahlanmış insanların qarşısına – Gəncəyə gedəndə də Azərbaycanı düşünür, Azərbaycan naminə çalışır, öz canını sipər edirdi. Onda milyonlar üçün əlçatmaz olan sərkərdə cəsarəti vardı. Onu Tanrı qoruyur, həmişə yanında olan Azərbaycan xalqı qoruyur və həmişə qalib gələn haqq-ədalət qoruyurdu.

Ümummilli lider ömrü boyu Azərbaycan xalqının rifahı naminə çalışmış və hansı sahədə fəaliyyət göstərməsindən asılı olmayaraq, bacarığı, qabiliyyəti, fitri istedadı ilə öz Vətəninə xidmət etmişdir. Azərbaycanda ilk dəfə 1969-1982-ci illərdə hakimiyyətdə olan ümummilli liderimiz öz xalqını zamanın ən çətin sınaqlarından çıxararaq ölkənin iqtisadi, siyasi və mədəni tərəqqisinə nail olmuş, geniş vüsət alan inkişaf proseslərinə təkan vermişdir.

1990-cı il iyulun 22-də ümummilli liderimizin Naxçıvana gəlişi xalqın böyük sevincinə səbəb olmuşdu. Onu da deyək ki, ulu öndər Heydər Əliyev Moskvada sakitcə yaşaya bilərdi. Ancaq O, sakitliyi və rahatlığı deyil, Azərbaycanın taleyini düşünürdü. Onun möhtəşəm qayıdışını doğulub boya-başa çatdığı Naxçıvan torpağı, yerli əhali hədsiz sevgi, məhəbbət və inamla qarşılamışdı. Hətta naxçıvanlılar bütün maneələrə baxmayaraq, qısa müddət ərzində ulu öndəri özlərinə rəhbər seçdilər. Görkəmli dövlət xadimi Heydər Əliyev hər zaman olduğu kimi, öz gəlişi ilə Naxçıvana yeni nəfəs gətirmiş, igid naxçıvanlılarla birlikdə onu təhlükələrdən qorumuş, ağır blokada şəraitində olmasına baxmayaraq, bu qədim Azərbaycan torpağını dirçəltməyə nail olmuşdur.

Böyük siyasi xadimin Naxçıvanda həyata keçirdiyi mükəmməl dövlət quruculuğu prosesini yaxından izləyən Azərbaycan xalqı 1993-cü ilin böhranlı iyun ayının ilk günlərindən ölkədəki xaos və anarxiyanı aradan qaldırmaq, Azərbaycan dövlətçiliyini xilas etmək naminə onun ölkə rəhbərliyinə qayıdışını tələb etməyə başladı. Çünki xalq yaxşı bilirdi ki, nəinki müstəqilliyin ilk illərində üzləşdiyimiz bəlalar, hətta ondan bir neçə il əvvəl başımıza gətirilən müsibətlər də məhz ümummilli liderin böyük siyasətdən kənarda olmasının nəticəsi idi.

1990-1993-cü illərdə Azərbaycanda yaranmış dözülməz şərait, ölkənin vətəndaş müharibəsi, parçalanma və dağılma təhlükəsi ilə üzləşməsi, Ermənistanın hərbi təcavüzünün genişlənməsi qəti addımların atılmasını, hakimiyyətin etibarlı əllərə tapşırılmasını tələb edirdi. Belə bir zamanda xalq milli dövlətçiliyi qorumaq və vətəndaş müharibəsinin ağır fəsadlarından qurtulmaq üçün ulu öndər Heydər Əliyevi Naxçıvandan Bakıya dəvət etdi. Xalqın çağırışı ilə ulu öndər 1993-cü il iyunun 9-da Naxçıvandan Bakıya gəldi. Bu qayıdış Vətənin xilası, xalqın qurtuluşu idi. İndi siyasi baxışlarından və dünyagörüşündən asılı olmayaraq, hər kəs etiraf edir ki, əgər tarixə “Milli Qurtuluş Günü” kimi daxil olmuş əlamətdar hadisə baş verməsəydi, xalqın istəyi və tələbi ilə 1993-cü ilin 15 iyununda ulu öndərimizin hakimiyyətə qayıdışı gerçəkləşməsəydi, indi biz müstəqil, qüdrətli, hər zaman tərəqqi edən, yeniləşən və demokratiya yolunda inamla irəliləyən Azərbaycan dövləti haqqında danışa bilməzdik.

Ulu öndərin paytaxta gəlişindən 1993-cü il oktyabrın 3-nə təyin edilmiş prezident seçkilərinə qədər keçən üç ay müstəqillik tariximizin çox həyəcanlı dövrü idi. 1991-ci il oktyabrın 18-dən 1993-cü il iyunun 15-nə qədər yaşadığımız ağır və məhrumiyyətlə dolu günlərin arxada qalacağına inam və ümid yaranmışdı. Ancaq xalqın yaddaşında daha bir tarixi məqam yaşayırdı: 1918-20-ci illərdə mövcud olmuş müstəqil dövlətimizin taleyi. Bəlkə də, ona görə 1993-cü ilin 3 oktyabr seçkiləri ərəfəsində insanlar bir-birlərinə xəbərdarlıq edirdilər: “Heydər Əliyev vətəndaş müharibəsinin qarşısını aldı, indi qalır müstəqilliyin qorunması”, “Heydər Əliyevdən başqa heç kəs bizim azadlığımızı qoruyub saxlaya bilməyəcək” və sair. Məhz bu çağırışlarla seçkiyə gedən Azərbaycan xalqı oktyabrın 3-də öz qətiyyətli sözünü deməyi bacardı.

1993-cü il oktyabrın 3-də keçirilən prezident seçkiləri, sözün həqiqi mənasında, Azərbaycan xalqının qarşısında duran ağır sınaq idi. Xalq həmin sınaqdan da üzüağ çıxdı. Xalqın əzm və iradəsinin ifadəsi kimi yaddaşlara yazılan həmin seçkidə ulu öndər Azərbaycan Respublikasının Prezidenti seçildi. Bu tarix həm də Azərbaycan xalqının öz tarixində ədalətli, şəffaf və demokratik seçki keçirmək ənənəsinin təməlinin qoyulduğu gün kimi əlamətdardır.

Prezident seçkilərində xalqın mütləq əksəriyyətinin səsini qazanaraq Azərbaycan Respublikasının Prezidenti seçilən ulu öndərimiz 1993-cü ilin 10 oktyabrında dövlətə və xalqa sədaqət andı içərək demişdir: ***“Bu gün mənim üçün tarixi, əlamətdar bir gündür. Mənə göstərilən bu böyük etimada görə Azərbaycan vətəndaşlarına, Azərbaycan xalqına hörmətimi, məhəbbətimi bildirir və əmin etmək istəyirəm ki, həyatımın sonuna qədər xalqıma sədaqətlə xidmət edəcək və bütün fəaliyyətimi Azərbaycan Respublikasının gələcək inkişafına sərf edəcəyəm”.***

Qeyd etmək lazımdır ki, 1993-cü ilin 3 oktyabr seçimi həm də xalqın müstəqil Azərbaycanın gələcəyini müdrik rəhbərə həvalə etmək istəyinin təcəssümü idi. Daxili və xarici qüvvələrin Azərbaycanın dövlətçiliyini sarsıtmaq istiqamətində əlbir iş gördükləri bir vaxtda hakimiyyətə qayıdan görkəmli dövlət xadimi Heydər Əliyevin səyi nəticəsində Azərbaycanda ictimai-siyasi sabitliyi pozmaq istəyən qanunsuz silahlı dəstələr ləğv edilmiş, ölkədə sabitlik yaradılmışdır.

Bu sabitlik müstəqil Azərbaycanın tarixində inkişaf və tərəqqiyə gedən yolun başlanğıcı olmuşdur. Xalqımızın böyük oğlu Heydər Əliyevin müdrik siyasəti nəticəsində ölkə iqtisadiyyatında tənəzzül prosesinin qarşısı alınmış, büdcə, vergi və pul-kredit siyasətində tarazlıq əldə olunmuş, inflyasiyanın səviyyəsi minimal həddə endirilmişdir. Ölkəmizin təbii sərvətlərindən səmərəli istifadə edilməsi, “Əsrin müqaviləsi”nin imzalanması, vaxtilə çoxlarının əfsanə hesab etdiyi Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft və qaz kəmərlərinin çəkilişinin reallaşdırılması Azərbaycanda iqtisadiyyatın bütün sahələrinin inkişafına, yerli və xarici investisiyalar, müasir texnologiyalar, idarəetmə təcrübəsi cəlb etməklə rəqabətqabiliyyətli məhsul istehsal edən müəssisələrin yaradılmasına, infrastrukturun yeniləşməsinə, yeni iş yerlərinin açılmasına imkan vermişdir. Bir sözlə, ulu öndərimizin 1969-cu ildən başladığı quruculuq xəttinin 1993-cü ildən sonra davam etdirməsi hərtərəfli inkişaf edən və regionda liderə çevrilən müstəqil Azərbaycan Respublikasının yaradılmasına səbəb olmuşdur. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev bu barədə demişdir: ***“Müstəqilliyimizin tarixində 1993-cü il müstəsna əhəmiyyətə malikdir. O zaman, mürəkkəb durumda xalqımız çox müdrik və tarixi bir seçim etmiş, Heydər Əliyevi ölkənin Prezidenti seçmişdir. Böyük nüfuza və şöhrətə malik olan bu siyasi xadim Azərbaycanda inkişafın təməlini qoymuş, bir sıra mühüm siyasi və iqtisadi islahatlara başlanmışdır”.***

Xalqımızın müdrik oğlu Heydər Əliyevin Azərbaycan dövlətçiliyi qarşısındakı böyük xidmətlərindən biri də dövlət quruculuğunun hüquqi bazasını yaratmasıdır. 1995-ci ildə qəbul olunmuş Konstitusiya ilə Azərbaycan Respublikasının dövlət quruculuğunun əsası qoyulmuşdur. Ölkəmiz demokratik, hüquqi, dünyəvi dövlət kimi ilk dəfə olaraq insan hüquqlarının prioritetlərini, hakimiyyət bölgüsünü özünün gələcək inkişaf yolu kimi seçmişdir.

Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsi istiqamətində görülən əsas işlərdən biri də ölkənin dünya birliyinə inteqrasiyasının təmin olunmasıdır. Ulu öndər Heydər Əliyevin uğurlu xarici siyasət kursu nəticəsində beynəlxalq təşkilatlarla bərabərhüquqlu səviyyədə əməkdaşlıq müstəqilliyin əsas dayaqlarından birinə çevrilmişdir. Yeni kollektiv sənədlərə və beynəlxalq müqavilələrə qoşulan Azərbaycan özünün coğrafi mövqeyindən, təbii ehtiyatlarından, iqtisadi potensialından istifadə əsasında bir çox dövlətlərlə və beynəlxalq qurumlarla səmərəli əməkdaşlıq qurmuşdur.

Ümummilli liderimizin dövlətçilik irsi həm də Azərbaycan cəmiyyətinin vahidliyinin təmin olunmasını özündə ehtiva edir. Bu baxımdan ulu öndərin əsasını qoyduğu siyasi xəttin davam etdirilməsi zamanın tələbidir. 2003-cü ilin 15 oktyabr seçkiləri də bir daha təsdiqlədi ki, Azərbaycan xalqı ümummilli liderin siyasi kursuna sadiqdir və bu kursun dövlətçiliyin təhlükəsiz, sabit inkişafına imkan verən yeganə strateji seçim olduğunu tam mənada dərk edir. Artıq xalqımız bu tarixi seçimin bəhrəsini görməkdədir. Belə ki, təkcə son 10 ildə ölkəmizdə bir sıra uğurlu infrastruktur layihələri gerçəkləşdirilmiş, bir milyondan çox yeni iş yeri açılmış, iqtisadiyyatımız 3,2 dəfə, sənaye istehsalımız 3 dəfə yüksəlmiş, yoxsulluq 7,4 dəfə azalmış, büdcəmiz 16 dəfə artmış, nəticədə, maaşlar, pensiyalar dəfələrlə qaldırılmış, əhalinin sosial rifah halı yaxşılaşdırılmışdır.

Ümummilli liderimiz Heydər Əliyevin tarixin çətin sınaq məqamlarında böyük xilaskarlıq missiyasını həyata keçirərək qoruyub saxladığı və gələcək inkişaf proqramını müəyyən etdiyi Naxçıvan Muxtar Respublikası da hazırda ulu öndərimizin adına və arzularına layiq şəkildə inkişaf etdirilir, yenidən qurulur. Son 19 ildə muxtar respublikanın keçdiyi inkişaf yolu ulu öndər Heydər Əliyevin ideyalarına sadiqliyin təcəssümüdür. Naxçıvan Muxtar Respublikası Azərbaycanın iqtisadi rayonları arasında inkişaf dinamikasına görə xüsusilə seçilir. Muxtar respublikada inkişafdan kənarda qalan sahə yoxdur. Bütün infrastruktur yeniləşdirilmiş, xüsusi zövqlə, diqqət və qayğı ilə yenidən qurularaq müasir tələblər səviyyəsinə çatdırılmış, qədim diyarın müdafiə potensialı gücləndirilmişdir. Bu gün muxtar respublikamızın paytaxtı Naxçıvan şəhəri, eləcə də digər şəhər, qəsəbə və kəndlərimiz, sözün əsl mənasında, intibah dövrünü yaşayır.

Xalqımızın rifahına, təhlükəsizliyinə və gələcək inkişafına töhfələrini verən Heydər Əliyev siyasəti Azərbaycanın regionda müstəqil siyasət yürüdən lider dövlət kimi möhkəmlənməsinin əsasını qoymuşdur. Əsrlər boyu azadlıq uğrunda mübarizə aparmış Azərbaycan xalqı məhz son 21 ildə ulu öndər Heydər Əliyevin və onun siyasətini uğurla davam etdirən ölkə Prezidenti cənab İlham Əliyevin fəaliyyəti sayəsində müasir beynəlxalq münasibətlər sistemində nüfuzlu söz sahibinə çevrilmişdir. Dünya ölkələrinin iqtisadi və maliyyə böhranından əziyyət çəkdiyi bir dövrdə yüksələn xətlə inkişaf edən müstəqil Azərbaycan Respublikası ulu öndərimizin əzmkarlıq, uzaqgörənlik və əsl vətəndaşlıq mövqeyinin nəticəsi kimi xalqımızın fəxr mənbəyinə çevrilmişdir.

*Bu gün qətiyyətlə deyə bilərik ki, ulu öndərin yenidən siyasi hakimiyyətə qayıtması, dövlət başçısı seçilməsi və Azərbaycanın dövlət müstəqilliyinin əbədiləşdirilməsi üçün həyata keçirdiyi siyasi fəaliyyət müasir Azərbaycan tarixinin ən şərəfli səhifələrindəndir. Təsadüfi deyil ki, müstəqil Azərbaycanın bu gün beynəlxalq aləmdə qazandığı istənilən uğur barədə söz açan xarici ekspertlər, ilk növbədə, ulu öndər Heydər Əliyevin adını çəkir, bugünkü Azərbaycanın məhz onun əsəri olduğunu söyləyirlər. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov ümummilli liderin Azərbaycan naminə fəaliyyətinin mahiyyətinin də məhz bununla bağlı olduğunu bildirərək demişdir:* ***“Azərbaycan dövlətçilik ənənələrinin iyirminci əsrin sonlarında bərpa edilib zənginləşdirilməsi, dövlət müstəqilliyinin əbədi və dönməz xarakter alması, ölkəmizin dinamik inkişaf yolu ilə inamla irəliləməsi, onun beynəlxalq nüfuzunun artması Heydər Əliyev siyasəti nəticəsində mümkün olmuşdur. O, müdrik rəhbərliyi, siyasi uzaqgörənliyi, qətiyyəti və əzmkarlığı ilə zəmanəmizin görkəmli siyasi xadimi kimi tanınmış, hələ sağlığında ikən Azərbaycan xalqının ümummilli liderinə çevrilmişdir”.***

**“Şərq qapısı”**

# Naxçıvanın inkişafı ulu öndər Heydər Əliyevin yoluna sədaqətin nəticəsidir



***Bu** gün Azərbaycanda ulu öndər Heydər Əliyevin ideyaları dönmədən həyata keçirilir. Azərbaycanımızın ayrılmaz tərkib hissəsi olan qədim Naxçıvan da Heydər Əliyev ideyaları işığında intibah dövrünü yaşayır. Yaradılmış sağlam mühit iqtisadi inkişafa, sosial yüksəlişə təkan verir, adamları doğma diyarın hər qarışını cənnətə döndərmək üçün daha səylə çalışmağa sövq edir. Muxtar respublikada aparılan quruculuq tədbirləri, iqtisadi və sosial sahədəki irəliləyişlər adilikdən uzaq, möcüzənin reallığa çevrildiyi həqiqətdir. Naxçıvanın son 19 ilini vaxtilə çiçəklənmə dövrü kimi tanınan, sivilizasiyanın yüksək zirvəsinə çatmış Atabəylər dövrünün Naxçıvanı ilə də müqayisə etmək olar. Beş min ildən artıq şəhərsalma mədəniyyətinə malik olan bu diyar bu gün özünün gənclik və xoşbəxtlik çağını ona görə yaşayır ki, muxtar respublikada ulu öndər Heydər Əliyevin yolu yaradıcılıqla davam etdirilir. Sənayedə, tikintidə, iqtisadiyyatda, sosial həyatın bütün sahələrində analoqu olmayan uğurlar ona görə qazanılır ki, Heydər Əliyev yolunun xoşbəxt sabahlara gedən həyat gəmisinin sükanı etibarlı əllərdədir. Bu, həqiqətdir, reallıqdır, gerçəklikdir. Bu həqiqətin, reallığın fövqündə isə yenidənqurmadan yeniləşməyə qədəm qoyan Naxçıvan görünür: rahat, abad yolları, gözoxşayan küçələri, binaları, bağları, parkları ilə, müasir, eyni zamanda ötən minilliklərdən xəbər verən memarlıq inciləri ilə, qızılgüllər gülüstanına dönən seyrəngahları, bağçaları ilə yeniləşən qədim, ulu, bu gün isə gənc, cavan Naxçıvan...*

Sürətlə gözəlləşən Naxçıvanın simasını dəyişdirən təkcə abad küçələr, rahat yollar, yaraşıqlı parklar, binalar deyil. Aparılan uğurlu siyasət sayəsində adamların dünyagörüşü, həyata baxışları da dəyişmişdir. Ürəklə, həvəslə görülən işlərin könülaçan fərəhli nəticələri isə göz qabağındadır. Doğma yurda sonsuz məhəbbətin ifadəsi hər addımda hiss olunur. Bu gün Naxçıvan yenidən qurulur. Ancaq bu yenidənqurmada dünənimizə məhəbbət və ehtiram hissləri də qəlbimizi dağa döndərir. Azərbaycanın ən qədim yurd yerlərindən biri, hər daşında, qayasında minilliklərin izini yaşadan, bəşər sivilizasiyasının ilkin məskənlərindən sayılan Naxçıvanın simvoluna çevrilən tarixi-memarlıq nümunələri qorunub saxlanılır, yeni tikintilər isə elə inşa olunur ki, tarixlə vəhdət yaranır. Naxçıvanlılar quruculuq prosesində fəal iştirak etməyi artıq vətəndaşlıq borcuna çeviriblər. "Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinin keçirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 14 yanvar 2014-cü il tarixli Sərəncamında da deyildiyi kimi: ***"Bu gün yüksək potensiala malik muxtar respublika bütün dövlət proqramlarını, infrastruktur layihələrini böyük uğurla həyata keçirməsi sayəsində ölkədə dinamik inkişaf xəttinə uyğun, fasiləsiz aparılan irimiqyaslı quruculuq, abadlıq işlərinin fəal iştirakçısıdır".***

Naxçıvan Muxtar Respublikası, onun hər bir bölgəsi, kəndi, şəhəri, qəsəbəsi bu gün tərəqqi və inkişaf yolundadır. Bu sürətli tərəqqi və inkişafı bütün sahələrdə – sənayedə, kənd təsərrüfatında, sosial-mədəni quruculuqda aydın görmək mümkündür. Çünki bu uğurlar hər bir naxçıvanlı ailəsinin xoş güzəranında öz əksini tapmışdır. Blokadanın çətinliklərinə baxmayaraq, qədim diyarımızda qərinələrə, əsrlərə bərabər inkişafa nail olunmuşdur. Qazanılan nə varsa, hamısı ulu öndərimizin ideyalarının ardıcıllıqla həyata keçirilməsinin nəticəsidir.

Ümummilli liderimiz Heydər Əliyev doğma Azərbaycanımız haqqında, Naxçıvan haqqında düşünür və deyirdi: ***"İstəyirəm ki, mənim arzum, istəklərim, Azərbaycan dövləti haqqında, müstəqil Azərbaycanın gələcəyi haqqında və Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan haqqında planlarım, arzularım yerinə yetirilsin".*** Böyük fəxrlə, qürur hissi ilə deyə bilərik ki, dahi rəhbərin arzu və istəkləri naxçıvanlılar tərəfindən sonsuz məhəbbətlə həyata keçirilmişdir.

Regionumuzda iqtisadi və sosial sahələrdə baş verən dəyişiklikləri xarakterizə edən makroiqtisadi göstəricilər yüksələn xətlə davam etdirilməkdə, istehsal sahələrində məhsul istehsalı artmaqda, müxtəlif sahələrdə göstərilən xidmətlərin səviyyəsi günbəgün yüksəlməkdədir. Davam etdirilən uğurlu iqtisadi siyasətin nəticəsidir ki, bu gün Naxçıvan ölkənin digər regionlarından öndədir. Bunu hər bir naxçıvanlı, qədim diyarımıza gələn hər bir qonaq görür və təqdir edir. Ölkə başçısı cənab İlham Əliyev Naxçıvana səfərləri zamanı muxtar respublikamızın inkişafını yüksək qiymətləndirərək demişdir: ***"Azərbaycanın digər bölgələri də inkişaf edir. Amma sizə deyə bilərəm ki, bu baxımdan Naxçıvan Azərbaycanda liderdir və ümid edirəm ki, siz gələcəkdə də liderliyi saxlayacaqsınız. Bunu – abadlıq, quruculuq işlərini, yeni binaların yüksək zövqlə, səliqə ilə, diqqətlə tikilməsini Naxçıvana gələn hər bir vətəndaş, qonaq görür. Hiss olunur ki, bu işlər böyük məhəbbətlə görülür. Bu da əsas şərtdir. Bəzən sual verirlər ki, uğurlu siyasətin əsas səbəbi nədir? Mən hesab edirəm ki, xalqa olan məhəbbətdir. Doğma torpağa olan məhəbbətdir. Əgər bu varsa, deməli, rəhbərlikdə olan şəxslər də öz doğma xalqına ləyaqətlə, məhəbbətlə xidmət edirlər. Bu, Naxçıvanda var və məni çox sevindirir".***

Bütün bunlar onu göstərir ki, muxtar respublika əhalisi ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlı olan sabitliyə və quruculuq işlərinə öz layiqli töhfəsini verməyə, nailiyyətləri daha da artırmağa çalışır.

Muxtar respublika özünün iqtisadi, sosial inkişaf sürətinə görə ölkənin regionları arasında həmişə lider mövqedə olub və bu liderliyi bu gün də saxlamaqdadır. Nəyin sayəsində? Əlbəttə ki, gələcəyə istiqamətlənmiş inkişaf proqramlarının qəbul edilib qısa müddətdə və yüksək səviyyədə həyata keçirilməsi, ən müasir texnologiyaların tətbiqi, sahibkarlığın inkişafına dəstək verilməsi sayəsində. Qurulanların, yaradılanların hamısı bu qədim, ulu diyarın mərd, əməksevər, el-obasına ürəkdən bağlı olan insanlarının gecəli-gündüzlü zəhməti sayəsində əldə edilmişdir.

Muxtar respublikamızın mərkəzində olduğu kimi, rayon mərkəzlərində, hətta ən ucqar kəndlərdə belə, nəqliyyat-kommunikasiya sisteminin bərpası, elektrik enerjisi, rabitə, qaz, su təminatı kimi sosial məsələlərin həlli, müasir informasiya texnologiyalarının tətbiqi mədəni-intellektual yüksəlişə əsaslı zəmin yaratmışdır. Muxtar respublikada mövcud potensialdan səmərəli istifadə etməklə iqtisadiyyatın ayrı-ayrı sahələrinin inkişafına, istehsal müəssisələrinin fəaliyyətinin daha da genişləndirilməsinə, ixracyönümlü məhsul istehsalının stimullaşdırılmasına, yerli sahibkarlığın inkişafı yolu ilə əhalinin həyat səviyyəsinin daha da yaxşılaşdırılmasına, məşğulluq səviyyəsinin, xüsusilə gənclərin faydalı əmək məşğulluğunun artırılmasına və ümumilikdə, muxtar respublika iqtisadiyyatının dinamik inkişafına nail olunmuşdur.

Bu inkişaf prosesində elm, təhsil və mədəniyyətin xüsusi yeri və payı var. Fikrimizcə, elm, təhsil və mədəniyyət sahəsində ciddi islahatlar aparıb yeniləşməyə nail olmadan əsl intibah səviyyəsinə çatmaq mümkün deyildir. Müasir səviyyədə qurulmuş elm və təhsil yeniləşmənin əsas hərəkətverici qüvvəsi kimi qəbul olunur. Ona görə də muxtar respublikada bu istiqamətdə dövlət səviyyəsində aparılan siyasət ardıcıl və məqsədyönlü proqram şəklində həyata keçirilir. Naxçıvanın qədimliyi, minilliklərə dayanan yaşı, milli-tarixi ənənələri, minilliklərdən xəbər verən toponimləri, arxeoloji abidələri, qayaüstü rəsmləri əsaslı şəkildə tədqiq edilir, öyrənilib bərpa olunur.

Ucqar dağ kəndlərindən tutmuş rayon mərkəzlərinə, Naxçıvan şəhərinədək orta və ali təhsil müəssisələri üçün yeni binaların tikilməsi və ya mövcud binaların əsaslı şəkildə yenidən qurulması, məktəblərin sürətlə kompüterləşdirilməsi, Naxçıvan şəhərində və rayon mərkəzlərində kompüter təlim-tədris mərkəzlərinin yaradılması elm və təhsil sahəsində böyük inkişafın və yeniləşmənin möhkəm təməlini təşkil edir.

Bu baxımdan Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 23 avqust 2014-cü ildə imzaladığı "Elm, texnika, memarlıq, mədəniyyət və ədəbiyyat üzrə Naxçıvan Muxtar Respublika mükafatlarının təsis edilməsi, Mükafat Komissiyasının yaradılması və Əsasnaməsinin təsdiq olunması haqqında" və 4 sentyabr 2014-cü ildə imzaladığı "Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun təsis edilməsi haqqında" fərmanlar Naxçıvan Muxtar Respublikasında elmə, müasir texnologiyanın tətbiqinə və inkişafına, mədəniyyətə və ədəbiyyata dövlət qayğısının yeni təzahürü kimi diqqəti cəlb edir. Heç şübhəsiz ki, bu mühüm dövlət sənədləri Naxçıvan Muxtar Respublikasında yaradılan münbit elmi mühitin daha da inkişaf etməsinə öz layiqli töhfəsini verəcək, bu istiqamətdə aparılan işlərin səviyyəsinin yüksəlməsinə, keyfiyyətinin artmasına səbəb olacaq, yaradıcı ziyalıları daha sanballı əsərlər yaratmağa həvəsləndirəcək və bu işlərin yerinə yetirilməsinə zəmin yaradacaqdır.

Həyata keçirilən tədbirləri göz önünə gətirəndə muxtar respublikamızda görülən işlərin həcmi, sözün həqiqi mənasında, hər birimizin qəlbini qürurla doldurur.

*Naxçıvan Muxtar Respublikasının inkişafı burada Heydər Əliyev yolunun uğurla davam etdirilməsinin nəticəsidir. Bu yol Azərbaycanın tərkibində hərtərəfli surətdə inkişaf etdirilmiş, əsaslı şəkildə yenidən qurulmuş, düşmən sərhədində alınmaz qalaya çevrilmiş müasir Naxçıvanın bundan sonra da böyük addımlarla irəliləyib inkişaf edəcəyinin real təminatıdır. Bu isə torpağını və məmləkətini sevən hər bir Azərbaycan vətəndaşının böyük arzusu və inamıdır. Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinə həsr olunmuş təntənəli mərasimdə ölkə başçısının dediyi kimi:* ***"Biz gələcəyə böyük ümidlərlə, nikbinliklə baxırıq. Bizim gələcəyimiz daha da gözəl olacaqdır. Sözün düzü, hesab edirəm ki, bu gün Naxçıvanın gələcək inkişafı ilə bağlı əlavə sözlərə ehtiyac yoxdur. Çünki bütün işlər burada ən yüksək səviyyədə görülübdür".***

**Namiq MƏMMƏDOV**
*Azərbaycan Respublikasının əməkdar müəllimi*

## Naxçıvan Beynəlxalq Hava Limanının payız-qış mövsümünə hazırlığı yüksək səviyyədədir



***Muxtar respublikanın nəqliyyat infrastrukturunda mühüm obyektlərdən biri də Naxçıvan Beynəlxalq Hava Limanıdır. Son illər göstərilən dövlət qayğısı hesabına hava limanının maddi-texniki bazası yenilənib, sərnişin və yükdaşımalarının rahat və təhlükəsiz şəkildə həyata keçirilməsi üçün hərtərəfli şərait yaradılıb.***

Limanın infrastrukturunun möhkəmləndirilməsi ilə bağlı həyata keçirilən ardıcıl tədbirlər çərçivəsində hava limanının fəaliyyətini daha da müasirləşdirmək və təhlükəsizliyi təmin etmək məqsədilə alınan müxtəliftəyinatlı yeni maşın-mexanizmlər mühüm rol oynayır. Payız-qış mövsümündə xidmət üçün nəzərdə tutulmuş bu yeni texniki vasitələr limanın fasiləsiz və təhlükəsiz fəaliyyətinə geniş imkanlar açır.

Naxçıvan Beynəlxalq Hava Limanının direktor müavini Ceyhun Zeynalovun verdiyi məlumata görə, payız-qış mövsümünə hazırlıqla bağlı görülən işlər daim diqqətdə saxlanılır. Mövsümlə əlaqədar həyata keçirilən tədbirlər nəticəsində, xüsusilə qış fəslində uçuş-enmə zolağının və perronun qardan, buzdan təmizlənməsi üçün istifadə olunacaq avtomobillər hazır vəziyyətə gətirilib. Təyyarələrin buzlaşma zamanı qəbul olunması üçün istifadə olunan ABŞ istehsallı "Qlobal", bazasında qartəmizləyən kürək, fırçalı diyircək və yüksək təzyiqlə havavuran "MAN", yəhərli dartıcı bazasında qartəmizləyən kürək, fırçalı diyircək və yüksək təzyiqlə havavuran "VOLVO" markalı avtomaşınlar, habelə "SUPRA" markalı frezer rotorlu qartəmizləyən, istilik verərək buzəridən qurğular və digər qarkürəyən texniki vasitələr ən soyuq və qarlı hava şəraitində belə, hava limanında xidmətin yüksək səviyyədə həyata keçirilməsinə şərait yaradır. Bundan əlavə, işıq-siqnal sisteminin yararlılığının yoxlanması, qazanxana bölümündə istilik qazanlarının yoxlanması, ehtiyat hissələrinin yeniləri ilə əvəz olunması işləri başa çatdırılıb. Hava limanının mövsümün hadisəsiz başa vurulmasına cavabdeh xidmətlərinin maddi-texniki bazası möhkəmləndirilib. Bütün güc kabellərinin izolyasiyasının yoxlanması, dizel generatorlarına, transformatorlara, elektrik verilişi xətlərinə xidmət göstərilməsi işi yekunlaşdırılıb. Sərnişinlərin qış aylarında rahatlığının təmin olunması məqsədilə aerovağzal kompleksində profilaktik tədbirlər də həyata keçirilib. Bir sözlə, yaradılan şərait və mövsümlə əlaqədar həyata keçirilən tədbirlər payız-qış mövsümündə sərnişinlərə nümunəvi xidmət göstərməyə imkan verəcək.

*Son illər muxtar respublikamızda 17 hüquqi və fiziki şəxsə məxsus ümumi tutumu 12 min 150 ton olan 19 soyuducu anbar istifadəyə verilmişdir. Bu da istehlakdan artıq olan meyvə-tərəvəz məhsullarının saxlanılmasına əlverişli şərait yaratmışdır.*

## Meyvə-tərəvəz məhsullarının tədarükü davam etdirilir

Naxçıvan Muxtar Respublikası İqtisadiyyat və Sənaye Nazirliyindən verilən məlumata görə, meyvə-tərəvəz məhsullarının tədarük olunub saxlanılması cari ildə də diqqət mərkəzində saxlanılmış, 1 iyul 2014-cü il tarixdən 25 sentyabr 2014-cü il tarixədək soyuducu anbarlara 338,15 ton kartof, 254,18 ton soğan, 4,32 ton sarımsaq, 1,40 ton alma olmaqla, ümumilikdə, 598,5 ton məhsul tədarük olunmuşdur.

İstehlakdan artıq istehsal olunan meyvə-tərəvəz məhsullarının soyuducu anbarlara tədarükü davam etdirilir.

Qeyd edək ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2012-ci il 14 fevral tarixli Sərəncamla təsdiq etdiyi "2012-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"na uyğun olaraq kompleks tədbirlər həyata keçirilmiş, ekoloji cəhətdən saf və təmiz meyvə-tərəvəz məhsulları ilə tanınan regionumuzda bu sahənin inkişafına geniş imkanlar açılmış, sahibkarların bu sahəyə marağı daha da artmışdır. Tərəvəz məhsullarının istehsalı və bağçılıq təsərrüfatının inkişafı üçün ayrı-ayrı rayonlarda sahibkarlara güzəştli kreditlər verilmişdir. Həyata keçirilən tədbirlər öz bəhrəsini vermiş, məhsuldarlıq artmış, sahələrdə bol məhsul yetişdirilmişdir.

**Xəbərlər şöbəsi**

*Çoxşaxəli iqtisadiyyatın yaradılmasında müxtəlif istehsal və xidmət sahələri üzrə bacarıqlı peşə sahiblərinin hazırlanmasına və onların peşə yönünə görə işlə təmin olunmalarına göstərilən diqqət mühüm əhəmiyyət kəsb edir. Bu, elə bir məqamdır ki, bəzən əlləri qızıldan olan bir çilingərin işini əvəz edə biləcək bir usta sənətkarın yetişməsi uzun illər vaxt apara bilər. Ona görə də peşə-sənət yolunu tutmuş gənclərə vaxtında göstərilən dəstək, onların usta bacarıqları qazanmalarına yaradılan şərait gec-tez öz bəhrəsini verəcəkdir. Çünki inkişaf edən ölkənin iqtisadiyyatında hər peşə sahibinin öz yeri, onun əməyinin isə öz qiyməti vardır.*

# Uğurlu peşə təhsili səmərəli məşğulluğu təmin edir



Ölkəmizin iqtisadi potensialının sürətlə artması və regionların inkişafı müasir texniki-peşə təhsili qarşısında da yeni tələblər qoyur. Naxçıvan Muxtar Respublikasında da hazırda əmək bazarında ixtisaslı kadrlara yaranan və gündən-günə artan tələbatı ödəmək qabiliyyəti olan yeni təhsil komplekslərinin yaradılması günün vacib məsələlərindəndir. Bu baxımdan işaxtaran vətəndaşların iqtisadi fəallığının yüksəldilməsi üçün onların peşə hazırlığının artırılması işində Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2007-ci il 28 noyabr tarixli Sərəncamı ilə yaradılmış Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Naxçıvan Regional Peşə Tədris Mərkəzi qarşısında mühüm vəzifələr durur. Mərkəz yarandığı gündən muxtar respublikada işaxtaran vətəndaşların, xüsusən gənclərin peşəyönümü istiqamətində formalaşması üçün onlara zəruri biliklərin verilməsini təmin etməkdədir. Mərkəzdə regionun əmək bazarında ciddi tələbat yaranan və unudulmaqda olan peşələr üzrə kurslar təşkil edilməklə bu sahədəki vəzifələrin həllinə ciddi diqqət yetirilir.

Naxçıvan Muxtar Respublikasında gənclərin peşə istiqamətinə cəlbi ilə bağlı tədbirlər davamlı xarakter almaqdadır. Bu il sentyabrın 15-də – Bilik Günündə Şərur Texniki-Peşə və Sürücülük Məktəb kompleksinin istifadəyə verilməsi münasibətilə keçirilən tədbirdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri bu barədə demişdir: ***“Peşəkar kadrlar yalnız ali və orta ixtisas təhsili müəssisələrində hazırlanmır. Bu məsələdə peşə təhsilinin düzgün təşkili də mühüm əhəmiyyətə malikdir”.***

İndiyə qədər çoxlu sayda peşə ixtisası üzrə kursların təşkil olunduğu Naxçıvan Regional Peşə Tədris Mərkəzində də bu tapşırıqların həlli istiqamətində xeyli işlər görülmüş, muxtar respublikanın bütün bölgələrindən cəlb olunmuş müdavimlər müxtəlif peşələrə yiyələnmişlər.

Regional Peşə Tədris Mərkəzindən aldığımız məlumatda 2009-cu ildən bəri burada ilk təşkil olunmuş kurslarda kabel lehimləyicisi və elektrik montyoru, elektron avadanlıqların təmiri və elektromexanik, traktorçu-maşinist, toxucu və xalçaçı peşələri üzrə ustalar hazırlandığı bildirilir. Ötən dövr ərzində regionun əmək bazarında çox tələb duyulan bərbər, ofisiant, dərzi, elektrik montyoru və qaz təsərrüfatı avadanlıqlarının istismarı və təmiri üzrə nəzarətçi-çilingər kimi peşə növləri üzrə ustaların hazırlanmasına ciddi diqqət yetirilmişdir. Ümumiyyətlə, indiyə qədər mərkəzdə 113 kurs təşkil olunmuşdur. Qeyd olunan dövrdə xalçaçı, toxucu, keçəçi, dərzi, qalayçı, misgər və tənəkəçi, ağac üzərində oyma, bələdçi, bərbər, ofisiant, aşpaz köməkçisi, çörəkçi, qazanxana maşinisti, qaz təsərrüfatı avadanlıqlarının istismarı və təmiri üzrə nəzarətçi-çilingər, traktorçu-maşinist, buldozer maşinisti, lift mexaniki, fotoqraf, videooperator, televiziya rejissorluğu, teleaparıcı, nitq mədəniyyəti və digər peşə kurslarının təşkili həyata keçirilmiş, kurslara cəlb olunmuş 1787 nəfərdən 1488 nəfəri işə göndərilmişdir. Bunlar arasında ən çox sayda müdavimi olmuş qazanxana maşinisti, bərbər, dərzi, elektrik montyoru peşə kurslarının adlarını da qeyd etmək lazımdır. Əmək bazarındakı tələbi nəzərə alaraq, mərkəzdə bərbər, ofisiant, aşpaz köməkçisi, elektrik montyoru, kabel lehimləyicisi və elektrik montyoru, qazanxana maşinisti, dərzi kursları təkrarən təşkil olunmuşdur. Qeyd etmək lazımdır ki, bir sıra kursların təşkili zamanı muxtar respublikada ixtisaslı kadr olmadığından kursu tədris edənlərin ölkəmizin paytaxtından Naxçıvana dəvət olunaraq gətirilməsi məsələsi də həll olunmuşdur.

Naxçıvan Regional Peşə Tədris Mərkəzində müdavimlərin normal təhsil almaları üçün bütün lazımi şərait yaradılmışdır. Burada təşkil olunan peşələrə uyğun ixtisaslaşdırılmış sinif otaqları vardır. Mərkəzdə kabinələr, emalatxanalar, istirahət və elektron lövhə otaqları fəaliyyət göstərir. Kabinə və emalatxanalar əyani vəsaitlər, elektron lövhə otağı isə sürətli internet və tədris üçün videomateriallarla təmin edilmişdir ki, bu da tədrisin keyfiyyətlə aparılmasında mühüm rol oynayır. Peşə hazırlığı kurslarının təşkili zamanı müəllim və müdavimlər kurslar üzrə müvafiq geyimlərlə təmin olunurlar. Naxçıvan Regional Peşə Tədris Mərkəzində 44 yerlik yataqxana, camaşırxana, yeməkxana, mətbəx, kitabxana fəaliyyət göstərir. Muxtar respublikanın rayonlarından gəlmiş müdavimlər yataqxanada qeydiyyata alınaraq gündə 3 dəfə yeməklə təmin olunurlar. Kursa cəlb olunanlar arasında Naxçıvan şəhəri ilə yanaşı, muxtar respublikanın Babək, Şərur, Culfa, Şahbuz rayonlarından gələn müdavimlər də üstünlük təşkil edirlər. Bu müdavimlərin yaş həddi isə 16-55 arasında dəyişir. Bu isə hər yaşda peşələrə yiyələnmək istəyənlərin olduğunu göstərir. Mərkəzdə peşə hazırlığı istiqamətində gələcəkdə aparılan işlərin təkmilləşdirilməsi məqsədilə əmək bazarında müxtəlif peşə istiqaməti üzrə kadrlara olan tələbatın müəyyənləşdirilməsi üçün rübdə bir dəfə muxtar respublikada fəaliyyət göstərən müəssisə və təşkilatlarda sorğular aparılır. Aparılan belə sorğuların nəticəsi və işaxtaranların fərdi müraciətləri gələcəkdə regionun əmək bazarına və rəqabətə uyğun peşə hazırlığı üçün tələbatı müəyyən etməyə imkan yaradır. Bütün bunlar isə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 18 dekabr 2013-cü il tarixli Sərəncamı ilə təsdiq edilmiş “2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı”nın icrası üzrə qarşıya qoyulmuş vəzifələrin uğurla yerinə yetirilməsinə xidmət edir.

**Əli CABBAROV**

# Naxçıvan Dövlət Universiteti beynəlxalq layihələrdə uğurla təmsil olunur

***Naxçıvan Dövlət Universitetində ali məktəbin beynəlxalq layihələrdə iştirakının prioritet istiqamətləri və qarşıda duran vəzifələrə həsr olunmuş tədbir keçirilib. Tədbiri universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov açaraq beynəlxalq layihələrin dünya təhsil sisteminə inteqrasiya, beynəlxalq təcrübə mübadiləsi, tədrisin səviyyəsinin yüksəldilməsi, maddi-texniki bazanın gücləndirilməsi, tələbələrin xaricdə təhsil almaları, yeni informasiya texnologiyalarının tətbiqi, beynəlxalq əlaqələrin inkişafı baxımından əhəmiyyətindən bəhs edib.***

Universitetin beynəlxalq əlaqələr üzrə prorektoru, riyaziyyat üzrə fəlsəfə doktoru Anar Kazımov Naxçıvan Dövlət Universitetində Koreya Beynəlxalq Əməkdaşlıq Agentliyi (KOİCA) ilə birgə həyata keçirilən “Naxçıvan Dövlət Universiteti üçün elektron təhsil şəbəkəsi və rəqəmsal multimedia infrastrukturunun yaradılması” layihəsi, Naxçıvan Dövlət Universitetinin Tempus proqramı ilə qarşılıqlı əməkdaşlıq şəraitində 5 layihənin iştirakçısı olması, Türkiyə Respublikasındakı universitetlər ilə dünya universitetləri arasındakı qarşılıqlı müəllim və tələbə mübadiləsi proqramı olan “Mövlana” proqramı çərçivəsində 8 nəfər tələbənin Türkiyədə tibb təhsilini davam etdirməsi barədə ətraflı məlumat verib. Bildirilib ki, Avstriyanın “Əldə etmək və saxlamaq” (“gain&sustain”) təşkilatı ilə birgə həyata keçirilən layihələr, “Dövlət investisiyaları üzrə kadr potensialının gücləndirilməsi” layihəsi təhsilin və tədrisin müasir tələblər səviyyəsində qurulmasına xidmət edir.

Naxçıvan Dövlət Universitetinin Pediatriya kafedrasının baş müəllimi, tibb üzrə fəlsəfə doktoru Elmar Rzayev çıxış edərək Avropa Şurasının Şərqi Avropada Tibb Təhsilinin Müasirləşdirilməsi layihəsinin (MUMEENA) tibb sahəsində təcrübəli mütəxəssislərin hazırlanması baxımından əhəmiyyətindən bəhs edib. Qeyd olunub ki, MUMEENA Avropada tibb təhsilinin modelini təqdim edir. Layihədə İngiltərə, Niderland, İspaniya və İtaliyadan olan nümayəndələr təmsil olunurlar. Naxçıvan Dövlət Universiteti 2012-ci ildən bu proqrama qoşulub.

Erasmus-Mundus layihəsinin koordinatoru, tarix üzrə fəlsəfə doktoru Şamxal Məmmədov Erasmus-Mundus (HUMERİA) proqramı çərçivəsində görülən işlərlə bağlı məruzə edərək vurğulayıb ki, Erasmus-Mundus Avropa Birliyi universitetləri ilə digər ölkələrin universitetləri arasında mübadilə və əməkdaşlıq əlaqələrini artıraraq dialoq və mədəni əlaqələrin inkişaf etdirilməsini hədəfləyən təhsil və tədqiqat proqramıdır. Bildirilib ki, layihə çərçivəsində universitetin Beynəlxalq münasibətlər ixtisası üzrə IV kurs tələbəsi Ağalar Məmmədov Çexiya Respublikasının Masarik Universitetində, tərcümə ixtisası üzrə (ingiliscə-Azərbaycanca) III kurs tələbəsi Güllü Rəhimova Rumıniyanın Babeş-Bolyai Universitetində iki semestr, simli alətlər ixtisası üzrə III kurs tələbəsi Dilarəxanım Məmmədli Rumıniyanın George Enesku Universitetində bir semestr ərzində təhsillərini davam etdirəcəklər. Çexiya Respublikasının Masarik Universitetindən, Polşa Respublikasının Vroslav Universitetindən olan iki doktorant isə təhsillərini Naxçıvan Dövlət Universitetində davam etdirəcək.

**Mehriban SULTAN**

# Ailə büdcəsinin planlaşdırılması əsassız borclanmaların qarşısını alır

***Ailə həyatı – ailə təsərrüfatının və ailə büdcəsinin təşkili bütün dövrlərin və bütün cəmiyyətlərin aktual problemi hesab edilir. Ailənin psixoloji və sosial vəziyyəti qədər onun iqtisadi vəziyyəti də ailənin yaşayış səviyyəsinə təsir göstərən önəmli faktordur. Çünki maddi problemlərlə əlaqədar bir sıra məsələlər ailə daxilində sıxıntılara gətirib çıxarır.***

Bu kimi maddi problemlərin qarşısını almaq üçün ailə büdcəsinin planlaşdırılması şərtdir. Ailə büdcəsi ailə üzvlərinin tələbatlarının ödənilməsinin əsas və başlıca mənbəyidir. Müəyyən müddət ərzində ailənin gəlirlərinin və xərclərinin məcmusu olan ailə büdcəsi dövlət, müəssisə büdcələrində olduğu kimi, gəlir və xərclərin fərqindən asılı olaraq, aktiv və ya müsbət büdcə, passiv və ya kəsirli mənfi büdcə kimi qiymətləndirilir. Eyni zamanda ailə büdcəsi gündəlik, həftəlik, aylıq və illik büdcə şəklində formalaşdırılır və istifadə olunur.

Ailənin gəlirlərinin və xərclərinin quruluşunun ailə büdcəsində əks olunması ailənin həyat səviyyəsi haqqında tədqiqat və araşdırma aparmağa imkan verir və əlverişli məlumat mənbəyi kimi çıxış edir.

İnkişaf etmiş ölkələrdə ailələrin böyük bir qismi öz ailə büdcələrini planlaşdırsalar da, təəssüf ki, ölkəmizdə belə bir planlaşdırma ölkə əhalisinin, sadəcə, 20 faizə qədər kiçik bir hissəsi tərəfindən həyata keçirilir. Bu gün Böyük Britaniyada ailələrin, təxminən, 90 faizi ailə büdcəsini tərtib edir. Böyük Britaniyanın statistika idarətmə saytında ailə büdcəsinin planlaşdırılması ilə bağlı xüsusi kalkulyator var. Ailələr həmin büdcə formasından istifadə edərək inflyasiya səviyyəsini nəzərə alaraq, gəlirlərini daxil etmək və xərclərini seçməklə büdcələrinin planlaşdırılmasını həyata keçirirlər. Həmin ölkələrdə ailə büdcəsinin planlaşdırılması üçün instisional baza mövcuddur.

Bu gün muxtar respublikamızda yaşayan ailələrin böyük bir qisminin ailə büdcəsi planlaşdırılmasına xəbərsiz olması və ya az maraq göstərməsi ailə gəlirlərinin səmərəliliyini də aşağı salır. Bu mənada ailə büdcəsi çox vacibdir.

Əgər ailədə büdcə planlaşdırılmırsa, gəlirlər kortəbii şəkildə xərclərə yönəldilirsə, ailədə qənaət yoxdursa, ərzaq və qeyri-ərzaq məhsullarının alınmasında israfçılığa yol verilirsə, gəlir çox olsa belə, ailənin xərclərinin qarşısını almaq mümkün olmayacaq. Bu isə ailələrin borclanmasına və ya qarşılaşdığı hər hansı maddi çətinlikdə kredit üçün banklara müraciət etməsinə gətirib çıxarır. Son statistik məlumatlara əsasən, əhali gəlirlərinin, təxminən, 20 faizə qədərini borclanma təşkil edir. Ölkəmizdə artıq əhalinin qarşılaşdığı hər kiçik maddi problemlə bağlı istehlak krediti almaq üçün banklara üz tutması isə ənənəyə çevrilmişdir. Məhz bunun nəticəsidir ki, son vaxtlar istehlak kreditlərinin kredit portfelindəki payı 40 faizə qədər yüksəlmişdir. Mənfi cəhətlərdən biri də ondan ibarətdir ki, ailələrin böyük bir qismi götürdükləri kreditləri öz gəlirlərinə daxil edirlər. Bu cür yanlış yönləndirmə gələcək aylar ərzində ailələrin xərclərinin artımında özünü büruzə verir. Belə ki, alınmış kreditlər, sadəcə, istifadə edildiyi başlanğıc anında ailə daxilində istehlakı canlandırır. Növbəti ayda kredit üzrə geri ödənişlər başlandığı andan etibarən isə ailədaxili xərcləri artırır və alıcılıq qabiliyyətini aşağı salır.

Ailə büdcəsi planlaşdırılan zaman diqqət edilməli bir neçə faktor mövcuddur. Bunlardan birincisi ailə üzvlərinin hər birinin əldə etdiyi gəlirlərin (əməkhaqqının, pensiyanın, təsərrüfat fəaliyyətindən əldə edilən gəlirlərin, əmlakın icarəsindən əldə edilən və digər gəlirlərin) əvvəlcədən müəyyənləşdirilməsi və düzgün təhlilidir. İkinci əsas amil isə xərcləri müəyyənləşdirmək, onları büdcəyə uyğunlaşdırmaq və ciddi nəzarətdə saxlamaqdan ibarətdir. Eyni zamanda lazım olmayan xərcləri müəyyən etməklə və düzgün qərarların verilməsi yolu ilə xərclərə qənaət etmək də mümkündür. Təcrübəyə əsasən, xərcləri ciddi nəzarətdə saxlamaq və düzgün təhlil etməklə gözlənilməyən xərclərdən qaçmaq və ya 25 faizədək qənaət etmək olar.

Bu baxımdan ailə büdcəsini planlaşdırmaq, ailə üzvlərinin əldə etdiyi gəlirlər və edilən xərcləri müəyyənləşdirmək, bu prosesi hər ay mütəmadi şəkildə davam etdirməklə ailələr qarşılaşa biləcəkləri maddi problemlərin öhdəsindən gələ bilər və əsassız borclanmalara yol verməzlər.

*İlkin mərhələdə Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsinin rəsmi internet səhifəsində (www.cbar-nar.az) yerləşdirilmiş ailə büdcəsinin aylar üzrə sadə hesablanması cədvəlinə istinad oluna bilər.*

*P.S. Hörmətli oxucular, büdcə planlaşdırılması ilə bağlı təqdim edəcəyimiz növbəti yazıda kiçik və orta sahibkarlıq subyektlərinin büdcə planlaşdırılmasından bəhs olunacaq.*

**Elçin ƏLİYEV**
**Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsinin İqtisadi təhlil və statistika şöbəsinin aparıcı mütəxəssisi**

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 844